**Hacettepe Üniversiteti, Ankara-Türkiyə**
**İlə**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Bakı-Azərbaycan**

**Akademik Əməkdaşlıq və Dəyişmə Protokolu**

Qarşılıqlı əməkdaşlığın və ortaq anlayışı təşviq etmək və inkişaf etdirmək məqsədi ilə, Hacettepe Universiteti, Ankara, Türkiyə və Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Bakı, Azərbaycan aşağıdakı maddələrlə əlaqədar bu protokolu qəbul edirlər.

I- Hacettepe Universiteti və Azərbaycan Dövlət Rəssamlıq Akademiyası aşağıdakı maddələri qaydalar və imkanlar çərçivəsində tətbiq edəcəkdir.

1) Təhsil və araşdırma işçilərinin mübadiləsini ehtiva edən ortaq araşdırma işlərini təşviq etmək.

2) Tələbə dəyişmə proqramları inkişaf çərçivəsində, hər iki ölkənin qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi və Türkiyə Respublikası Ali təhsil Kabinetinin razılığı alınaraq cüt diplom imkanını təmin edən proqramlar etmək.

3) Akademik araşdırma məlumatları və texniki material mübadiləsi etmək.

4) Mətbuat və mədəni fəaliyyətlərdə əməkdaşlıq etmək.

5) Ortaq akademik konfranslar təşkil etmək.

II -Ortaq araşdırma işləri çərçivəsində ediləcək dəyişikliklər hər bir universitetin imkanları və şərtlərinə görə ayrıca planlanacak və bir protokol ilə bağlanacaq.

III-Bu protokol imzalandığı tarixdən sonrakı beş il üçün etibarlı olacaq. Lazım olan vəziyyətlərdə iki universitetin səlahiyyətli nümayəndələrinin yazılı təsdiqiylə yenidən təşkil edilə və ya dəyişdiriləbiləcəkdir. İlk beş illik müddətdən sonra protokol qarşılıqlı razılıq ilə ikinci beş ilə uzadıla bilər.

IV-Universitetlərdən biri protokolu bitirmək istəsə, bu niyyətini altı ay əvvəl qarşı tərəfə məlumat verəcəkdir.
Bu protokol hər iki universitetin səlahiyyətli nümayəndəsi tərəfindən imzalandıqdan sonra qüvvəyə minəcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Bakı,Azərbaycan** | **Hacettepe Üniversiteti, Ankara,Türkiyə** |
| **Akad.Ömər Eldarov** | **Prof.Dr.A.Murat Tuncer** |
| **Rektor** | **Rektor** |